TURKPA

PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

**BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**

**ÜÇÜNCÜ İCLAS**

**HESABAT MƏRUZƏSİ**

**"TÜRKDİLLİ ÖLKƏLƏRİN BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ QARŞILIQLI FƏALİYYƏTLƏRİ"**

## I. GİRİŞ

1. Ötən əsrin 90-cı illərinin əvvəlindən başlayaraq Türkdilli ölkələr xarici siyasətlərində bir biri ilə əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verməyə başladılar. İkitərəfli əməkdaşlığa paralel olaraq çoxtərəfli əməkdaşlığın da inkişaf etdirilməsi üzv ölkələrin stratejik hədəflərindən biri kimi nəzərə alınmağa başlanıldı. Bu məqsədlə Türkdilli ölkələr 1992-ci ildən "Türkdilli ölkələrin Zirvə Toplantıları" prosesinin başlanılması təşəbbüsü ilə çıxış etdilər və bu əməkdaşlıq prosesinin institutlaşdırılması cəhdlərinə başladılar. Türkdilli ölkələr digər regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq yaradaraq dünyada haqlı yerlərini tutmağa çalışırlar.

2. Yeni müstəqil Türk dövlətlərinin yaranmasından sonra Türkdilli ölkələrin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əlaqələri onların xarici siyasət gündəliyində əsas məsələlərdən birinə çevrilmişdir. Ötən iyirmi il ərzində Türkdilli ölkələr ümumi maraq doğuran məsələlər ətrafında müzakirələr aparmaq və qarşılıqlı faydalı bütün sahələrdə layihələr həyata keçirmək üçün bir araya gəlmişlər. Əməkdaşlıq sahələri: xarici siyasət üzrə məsləhətləşmələr; ticarət və iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, enerji, nəqliyyat, rabitə, bank və sığorta, təhsil, mədəniyyət, elmi tədqiqat, iqlim dəyişikliyi; ətraf mühitin mühafizəsi, turizm, humanitar əlaqələr, qeyri-hökumət təşkilatları; və narkotik, silah və radioaktiv materiallarınqanunsuz daşınması, terrorizmin bütün fəaliyyətləri, qanunsuz miqrasiya və təşkilatlanmış cinayətkarlığa qarşı mübarizə kimi müəyyən edilmişdir.

3. TURKSOY-dan sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və Türkdilli Ölkələrin Parlament Assambleyasının yaranması ilə digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq yeni bir təşkilatlanma mərhələsinə qədəm qoymuşdur.

4. Türkdilli dövlətlər artıq digər regional hökumətlərarası və parlamentlərarası təşkilatlarla qarşılıqlı fəaliyyətlərlə məşğul olurlar. Burada üstünlük əsasən bütün Türkdilli ölkələrin üzv olduğu təşkilatlara verilir. Türk Şurası, TÜRKPA və TÜRKSOY çərçivəsində məsləhətləşmələr və öhdəliklərin nəticəsi olaraq Türkdilli ölkələr aparıcı beynəlxalq institutlar çərçivəsində praktiki qarşılıqlı fəaliyyət prosesinin təşəbbüsü ilə bağlı razılığa gəlmişlər.

5. Həm Türk Şurası həm də TÜRKPA beynəlxalq arenada birgə fəaliyyətlərin əhəmiyyətini ifadə etmişlər. Bütün Türkdilli ölkələr özlərini sülh və stabilliyin gücləndirilməsi, dialoqun genişləndirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi və ümumi inkişaf üçün potensialın açılmasına həsr etmişlər. Beləliklə, onlar Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində təsbit olunmuş məqsəd və prinsiplərinə tam riayət edirlər. Münasibətlərin və həmrəyliyin möhkəmlənməsinə yardım etməklə, Türkdilli dövlətlər Mərkəzi Asiya və Qafqaz regionlarında beynəlxalq əməkdaşlığın zənginləşdirilməsi üçün çalışırlar.

6. Türkdilli ölkələrin tarixi, mədəni və dil birliyi, eyni zamanda iqtisadi və sosial bənzərlikləri onların arsında beynəlxalq münasibətlər sistemində global çərçivədə qarşılıqlı fəaliyyət üçün möhkəm zəmin yaradır. Effektiv qarşılıqlı fəaliyyət mexanizmləri eyni zamanda Avrasiyada gərginliyin və münaqişələrindinc yolla həlli üçün əhəmiyyətli imkanlar yaradacaq və davamlı inkişafı üçün dinc, sabit və çiçəklənən mühit yaratmağa kömək edəcəkdir.

## II. ÜZV ÖLKƏLƏRİN ƏSAS BEYNƏLXALQ TƏŞKİLATLARDA İŞTİRAKI

### *AZƏRBAYCAN*

7. Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra müstəqil xarici siyasət yürütmüşdür. Bu siyasət dövlət quruluşunun gücləndirilməsi və inkişafına və Azərbaycanın milli maraqlarının qorunmasına xidmət edir. Azərbaycan öz xarici siyasətini beynəlxalq hüquqi norma və standartlar, dövlət suverenliyi, ərazi bütövlüyünə hörmət və daxili işlərə qarışmama prinsipləri əsasında qurur.

8. Azərbaycan regional və qlobal fəaliyyətini və beynəlxalq əməkdaşlığı genişləndirərək və inkişaf etdirərək bir sıra beynəlxalq təşkilatlara üzv olmuşdur: BMT (mart, 1992), Avropa Şurası (mart, 2001) və AŞPA, ATƏT (yanvar, 1992) və ATƏT PA, MDB (sentyabr, 1993), MDB PA, İKT (1992) və İƏT Pİ, İƏT (İqtisadi Əməkdaşlıq Təşkilatı, 1992). Son zamanlarda Azərbaycan regional əməkdaşlığın institutlaşmasının təşəbbüskarı olmuşdur. Bundan əlavə, Azərbaycan GUAM, QDİƏT-in qurumlarının və Türk əməkdaşlığı təşkilatlarının yaradıcılarından biri olmuşdur.

9. Azərbaycan Respublikası 2 mart 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatına qəbul olunmuşdur və 6 may 1992-ci ildə Nyu Yorkda Birləşmiş Millətlər Təşkilatında Azərbaycan Respublikasının Daimi Nümayəndəliyi açılmışdır. BMT ilə əməkdaşlığın ilk günlərindən etibarən Azərbaycan BMT platformasından istifadə edərək beynəlxalq ictimaiyyətin diqqətini onu narahat edən məsələlərə yönəltməyə başlamışdır. Azərbaycan UNDP, UNICEF, UNHCR, UNESCO, UNCTAD, IAEA və digərləri kimi BMT-nin ixtisaslaşmış qurum və agentlikləri ilə səmərəli əməkdaşlıq edir. Azərbaycanla BMT

Uşaq Fondu (UNİCEF) arasındakı əməkdaşlıq qaçqın və məcburi köçkünlər arasında uşaq və yeniyetmələrin şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmişdir. Azərbaycan 1995-1997 və 1998-2000-ci illər ərzində UNİCEF İdarə Heyətinin üzvü olmuşdur.

10. Azərbaycan 2012 və 2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmuşdur. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanmasına və Təhlükəsizlik Şurasının dünyada meydana çıxan çətinlik və təhlükələrin öhdəsindən gələ bilən daha effektiv, şəffaf və səmərəli qurum kimi fəaliyyət göstərməsinə öz töhfələrini vermişdir. 2012-ci ilin may ayında Təhlükəsizlik Şurasına ilk sədrliyi müddətində sədrlik bəyanatının qəbul olunması ilə Şuranın gündəliyində ən kritik məsələlərdən biri – Beynəlxalq terrorizmin qarşısının alınması yolları mövzusunda xüsusi iclas keçirilmişdir.

11. Azərbaycanla ATƏT arasında əməkdaşlıq 30 yanvar 1992-ci ildə Praqada keçirilən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Xarici İşlər Nazirlərinin ikinci görüşü zamanı Azərbaycan Respublikasının ATƏM-ə qəbul olunması qərarından sonra başlamışdır. Eyni zamanda, Azərbaycan 1993-cü ildə ATƏT PA-ya da qəbul olunmuşdur.

12. Azərbaycan ATƏT-in prinsip və normalarını tam dəstəkləyir və ATƏT regionunda hərtərəfli təhlükəsizliyin təmin olunmasına öz töhfələrini verir. Regional sülh və təhlükəsizliyin gücləndirilməsində maraqlı olduğundan, ATƏT-in yürütdüyü siyasət Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir.

13. Azərbaycan və İƏT arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətində prioritet istiqamətdir və strateji əhəmiyyət kəsb edir. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan təşkilata üzv olmaq üçün müraciət etmiş, 1992-ci ildə İƏT-ə, o cümlədən, 1999-cu ildə İƏT Pİ-yə qoşulmuşdur.

14. Azərbaycan, həmçinin İƏT-nin müxtəlif qurumları ilə əməkdaşlıq edir. Son illərdə, Azərbaycanla İƏT əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Son illər ərzində, Azərbaycan İƏT ilə birgə qlobal mədəniyyətlərarası və dinlərarası dialoq üçün möhkəm platformanın inkişaf etdirilməsinə yönəlmiş müxtəlif təşəbbüslərlə çıxış edirlər.

15. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə və ya CICA 1992-ci ildə yaradılmışdır. Soyuq müharibədən sonra Asiyanın iqtisadi yüksəlişinə paralel olaraq onun təhlükəsizlik problemləri də gündəmə gəlmişdir. Asiyanın iqtisadiyyatının böyüməsi ilə əlaqədar olaraq enerji əməkdaşlığı CICA-nın gündəliyində prioritet məsələlərdən bri hesab olunur. Azərbaycan Türkiyə, Hindistan, Çin kimi CICA üzvlərinin enerji ehtiyaclarının ödənilməsində mühüm rol oynayır və həmçinin Qazaxıstan, İran və Türkmənistan kimi CICA üzvlərinin enerji marşrutları üçün alternativ marşrutdur.

16. CICA ərazisi daxilində problemlərin həlli üçün qəbul olunmuş iki anlayış var: 1. Təhlükəsizlik yalnız hərbi deyil, eləcə də, iqtisadi, enerji və ətraf mühit məsələlərini əhatə edir. 2. Təhlükəsizliyin bölünməzliyi – bütün üzvlərin təhlükəsizliyi bir birinə təsir göstərir və beləliklə, üzv dövlətlər arasında əməkdaşlıq güclənir. Bu prinsiplər

çərçivəsində CICA və Azərbaycan arasında təhlükəsizlik əlaqələri iki yolla təhlil oluna bilər: 1. Azərbaycanın CICA üzvü kimi təhlükəsizlik problemləri. 2. CICA təhlükəsizliyində Azərbaycanın potensialı.

***QAZAXISTAN***

17. Qazaxıstan 2 mart 1992-ci ildə BMT-yə qəbul olunmuşdur. O ATƏT, MDB, AYİB, İƏT, ESCAP, UNCTAD və Dünya Bankının üzvüdür. O, xüsusilə, qonşu Mərkəzi Asiya dövlətləri və Çinlə yaxşı münasibətlər qurmuşdur. 2001-ci ilin iyununda Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan rəhbərləri Çində bir araya gələrək Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) fəaliyyətinə başlamış və etnik və dini aqressiyaya qarşı mübarizə apararaq ticarəti inkişaf etdirmək haqqında müqavilə imzalamışlar.

18. Müstəqilliyinin ilk günündən etibarən Qazaxıstan BMT və onun ixtisaslaşmış agentliklərinin işində fəal iştirak etməkdədir. Bu əməkdaşlıq Qazaxıstan dövlətinin xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sahədə əsas məqsəd beynəlxalq arenada, qlobal və regional təhlükəsizlik sferasında dövlətin strateji maraqlarını təmin etmək, siyasi və iqtisadi baxımdan ədalətli dünya nizamının inkişafı, davamlı inkişaf çərçivələri və dünya ictimaiyyəti üzvləri arasında əlaqələrin harmonizasiyasıdır. Qazaxıstan BMT-yə 2 mart 1992-ci ildə qoşulmuşdur. Bu gün Qazaxıstan BMT-nin bütün ixtisaslaşmış agentliklərinin üzvüdür.

19. Qazaxıstan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına 30 yanvar 1992-ci ildə qoşulmuşdur. Eyni ildə, 8 iyul tarixində o ATƏM-in Helsinki Yekun Aktını və 23 sentyabr tarixində Yeni Avropa üçün Paris Xartiyasının imzalamışdır. Qazaxıstanın xarici və daxili siyasəti çoxtərəfli tərəfdaşlıq və iqtisadiyyatın və cəmiyyətin liberallaşdırılması strategiyasının əsas rol oynadığı balanslı yanaşmaya əsaslanır. Xüsusilə 2010-cu ildə ATƏT-ə sədrliyi dövründə, Qazaxıstan 11 il fasilədən sonra Astanada dövlət başçıları səviyyəsində zirvə görüşü keçirmişdir. Qazaxıstan, həmçinin təşkilatın Parlament Assambleyasının işində də fəal iştirak edir.1995-ci ildə Qazaxıstan Vyanada dövlətin ATƏT-də birbaşa iştirakını təmin edən Beynəlxalq Təşkilatlarda Daimi Missiyasını yaratmışdır.

20. 1995-ci ildə Qazaxıstan İƏT-nin tam hüquqlu üzvü olmuşdur. Təşkilatın işində on beş illik iştirakla Astana İƏT və onun qurumları ilə yüksək səviyyədə qarşılıqlı fəaliyyətdə olmuşdur. Ötən on beş il ərzində Qazaxıstanın İƏT və onun üzv dövlətləri ilə əməkdaşlığı yüksələn templə inkişaf etmişdir. Qazaxıstanın İƏT üzvlüyü onun İƏT üzv dövlətləri ilə əlaqələrinin güclənməsinə yardım etmiş, Qazaxıstan üçün İslam dünyasının siyasi və iqtisadi proseslərində iştirak etməyə yeni imkanlar yaratmış və Qazaxıstana xarici investisiyaların cəlb olunmasına yardım etmişdir. Qazaxıstan İƏT ilə mədəniyyət, təhsil, elm və texnologiya sahələrində yaxından əməkdaşlıq edir. İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESCO) ilə birgə çalışmaqla dövlət mədəni irsin qorunması və bərpası, dillərin, o cümlədən, İslam dünyasının tarix və mədəniyyətinin öyrənilməsi və tədrisində təcrübə mübadiləsi kimi milli layihələrin uğurla həyata keçirilməsinə nail olmuşdur. 2011-ci ilin iyunundan 2012-ci ilin iyun ayınadək olan müddətdə Qazaxıstanın İƏT sədrliyi dövründə əlaqələr daha da genişləndi.

21. CICA-nın çağırılması ideyası ilk dəfə 5 oktyabr 1992-ci ildə, BMT Baş Assambleyasının 47-ci Sessiyası zamanı Qazaxıstan Prezidenti zati-aliləri Nursultan Nazarbayev tərəfindən irəli sürülmüşdür. Bu təşəbbüsün aparıcı qüvvəsi Asiyada sülh və təhlükəsizliyin təmin edilməsi üçün səmərəli və məqbul strukturun yaradılması istəyidir. CICA-nın administrativ orqanı olan Katiblik Qazaxıstanın Almatı şəhərində yerləşir.

22. Qazaxıstan Belarus, Qazaxıstan və Rusiyadan ibarət Avrasiya Gömrük İttifaqının üzvüdür. Gömrük İttifaqının əsası 2010-cu ildə gömrük rüsumlarının və iqtisadi məhdudiyyətlərin aradan qaldırılması ilə vahid gömrük ərazisinin yaradılması məqsədilə qoyulmuşdur. Gömrük İttifaqının vahid iqtisadi məkanı 1 yanvar 2012-ci ildə fəaliyyətə başlamışdır.

## ***QIRĞIZISTAN***

23. Bu gün Qırğızıstan 70-dən artıq beynəlxaq təşkilatatın üzvüdür. 1991-ci ilin avqustunda müstəqilliyini əldə edən Qırğızıstan 1992-ci ildə BMT-yə qəbul olunmuşdur. Qırğızıstan BMT-nin əsas qurumlarında fəal iştirak edir və onun ixtisaslaşmış agentlikləri ilə yaxından əməkdaşlıq edir. Qırğızıstan Dünya Ticarət Təşkilatına üzv olan ilk MDB dövlətidir. O Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı və Dünya Bankı ilə beynəlxalq əlaqələr qurmuşdur. Qırğızıstan xarici siyasətinin prinsipləri: MDB və dünya dövlətləri ilə beynəlxalq əlaqələrin gücləndirilməsi, xalqlar arasında münaqişələrdən kənarda qalmaq və münaqişələrin sülh yolu ilə həlli, dövlət sərhədlərinin gücləndirilməsi, eləcə də, regionda mövqeyinin möhkəmləndirilməsi, dövlətin müsbət imicinin formalaşdırılması, dünya bazarında rəqabət qabiliyyətinin artırılmasıdır.

24. Qırğızıstan Respublikası Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və ATƏT PA kimi beynəlxalq təhlükəsizlik qurumları ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir. Təhlükəsizlik, insan hüquqlarının qorunması, ətraf mühit və iqtisadi inkişaf məsələləri ATƏT ilə qurulmuş sıx əməkdaşlıq çərçivəsində həyata keçirilir. Qırğızıstan digər Mərkəzi Asiya dövlətləri ilə birlikdə 1992-ci ilin yanvar ayında ATƏT-ə üzv olmuş və təşkilatın əsas sənədlərinə qoşulmuşdur: Helsinki Yekun Aktı və Avropa Təhlükəsizliyi üçün Paris Xartiyasına.

25. Qırğızıstan Respublikası 1-2 dekabr 1992-ci ildə İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin Ciddə şəhərində (Səudiyyə Ərəbistanı) keçirilən 6-cı növbədənkənar sessiyasında İKT-yə üzv olmuş və 1993-cü ildən onun fəaliyyətində iştirak etməyə başlamışdır. İKT-yə üzv olmasında Qırğızıstanın əsas motivlərindən biri Respublikada ağır sosial-iqtisadi vəziyyətin aradan qaldırılması və iqtisadiyyatın sahələrinin yenidən qurulmasının müxtəlif layihələrinin həyata keçirilməsinə yeni imkanların axtarılması məqsədilə siyasi əlaqələrin gücləndirilməsi vasitəsilə iqtisadi əməkdaşlığın qurulması zərurəti olmuşdur. Qırğızıstanın İKT forumlarında iştirakı onun İslam dünyasının aparıcı dövlətləri ilə siyasi və iqtisadi əlaqələrinin gücləndirilməsi imkanlarını genişləndirmişdir.

26. Qırğızıstan təhlükəsizliyə təhdid və mövcud çətinliklərə qarşı mübarizədə beynəlxalq ictimaiyyətin narahatlığına şərikdir və terrorizm, ekstremizm və narkotik alverinə qarşı mübarizə məsələlərində CICA üzv dövlətlərinin fəal əməkdaşlığını dəstəkləyir.

***TÜRKİYƏ***

***27.*** Türkiyə Birləşmiş Millətlər Təşkilatının, İslam Konfransı Təşkilatı (indiki İslam Əməkdaşlıq Təşkilatı), İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) qurucu üzvü, 1949-cu ildən Avropa Şurasının və 1952-ci ildən NATO-nun üzvüdür. Türkiyə 1963-cü ildən əlaqələndirici üzv olmaqla 2005-ci ildən Avropa Birliyinə üzvlük haqqında danışıqlara davam edir. Türkiyə həmçinin dünyanın 20 ən böyük iqtisadiyyatını bir araya gətirən G20-nin üzvüdür. 1952-ci ildə NATO-ya üzv olmuş Türkiyə Qara və Aralıq dənizlərinin birləşdirən boğazları nəzarətdə saxlayan və Suriya, İraq və İranla ümumi sərhədi olan bir ölkə kimi şərqdə bu təşkilat üçün böyük əhəmiyyət kəsb edir. NATO-nun qərargahı İzmirdə yerləşir və ABŞ hava qüvvələrini Türkiyənin Aralıq dənizi sahilində yerləşən Adana şəhərində İncirlik adlanan bazada yerləşdirmişdir. Türkiyə həmçinin Dünya Ticarət Təşkilatının üzvüdür. Avropa Azad Ticarət Assosiasiyası, İzrail və bir çox digər ölkələrlə sərbəst ticarət sazişləri imzalanmışdır. 1992-ci ildə, Türkiyə və 10 digər regional xalqlar regional ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək məqsədilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Biznes Şurasını yaradır. 2000-ci ilin dekabrında Türkiyə Karib Dövlətləri Assosiasiyasında müşahidəçi dövlət oldu.

28. Qlobal problemlərin yalnız qlobal miqyasda əməkdaşlıq vasitəsilə həll edildiyini nəzərə alan Türkiyə çoxtərəfli platformalarda xüsusən belə əməkdaşlığın mümkün qədər geniş iştirak və möhkəm qanuni əsaslarda fəaliyyət göstərdiyi BMT kimi ümumbəşəri bir təşkilat çərçivəsində fəal diplomatik siyasət aparır. BMT-yə gəldikdə isə məsələn, 2009-2010-cu illər ərzində Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlüyü başa çatdıqdan sonra Türkiyə Şuraya qeyri-daimi üzv olmaq üçün yenidən 2015-2016-cı illər üçün öz namizədliyini irəli sürdü. Məqsəd Şuranın fəaliyyətinə əlavə dəyər qataraq qlobal vəzifələrinin səmərəliliyini artırmaqdır. Digər tərəfdən təhlükəsizlik və inkişaf arasında birbaşa əlaqələri nəzərə alaraq Türkiyə qlobal inkişaf diplomatiyası sahəsində də aktiv rol almağa başlamışdır. Bu baxımdan Türkiyə 9-13 may tarixləri arasında İstanbulda keçirilmiş BMT-nin Ən Az İnkişaf Etmiş Ölkələrə dair 4-cü Konfransına ev sahibliyi etmiş və 2011-2020-ci onilliyinə dair Fəaliyyət Proqramının qəbul edilməsinə öz töhvəsini vermişdir.

29. Türkiyə 1975-ci ildən ATƏT-in yarandığı və Daimi Konfrans qismində (ATƏM) formalaşdığı gündən etibarən bu təşkilatın üzüdür və təşkilata inkişafı və fəaliyyətinin gücləndirilməsi sahəsində hər zaman dəstək vermişdir. Türkiyə ATƏT-də oz təsirini artırmaq niyyətindədir. Bu gün Türkiyənin ATƏT-in fəaliyyətinə olan töhvəsi hər üç ölçünü əhatə edir. Türkiyə hökuməti ATƏT-in Qafqaz, Mərkəzi Asiya və Balkanlarda layihələri üçün demokratik asayişin qorunması, sərhəd idarəçiliyi, terrorla mübarizə, gömrük nəzarəti, qeyri-qanuni narkotik dövriyyəsinə dair mübarizə, institusional quruluş, münaqişədən sonra bərpa, yaxşı idarəetmə, ixtisaslaşdırılmış təlim, azlıqların müdafiəsi və ictimai asayiş sahələrində ekspertizalar həyata keçirməklə texniki və maliyyə yardımı göstərir.

30. Türkiyə yarandığından bəri (1969) 57 dövləti birləşdirən İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Üzv dövlətlər arasında iqtisadi, mədəni, sosial və digər sahələrdə fikirlərinin razılaşdırılması və ümumiləşdirilməsi məqsədilə Dövlət Başçılarının sədrliyi ilə 25-28

yanvar 1981-ci ildə Səudiyyə Ərəbistanı Taif şəhərində keçirilən İslam Zirvə toplantısında təşkilatın 3 Daimi Komitəsi yaradılmışdır (İqtisadi və Ticari Əməkdaşlıq-İnformasiya və Mədəniyyət İşləri-Elmi və Texniki Əməkdaşlıq üzrə Daimi Komitələr).

31. İqtisadi və Ticari Əməkdaşlıq Komitəsinin Sədri Türkiyə Cümhuriyyətinin Prezidentidir. İqtisadi və maliyyə sahələrində İslam Konfransı tərəfindən qəbul olunmuş qərarların həyata keçirilməsini izləmək, üzv dövlətlər arasında əməkdaşlığın gücləndirilməsinin bütün mümkün vasitələrini araşdırmaq və üzv dövlətlərin bu sahələrdə qabiliyyətinin artırılması üçün proqram və təkliflərin irəli sürülməsi bu Komitəyə həvalə olunmuşdur.

32. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin qurucu üzvlərindən olan Türkiyə təşkilatın fəal üzvlərindən biridir. Təşkilata sədrlik 7-9 iyun 2010-cu ildə 2 illik müddətə Qazaxıstandan Türkiyəyə keçmişdir. Lakin müddətin bitməsinə baxmayaraq Türkiyənin sədrliyi üzv ölkələr tərəfindən növbəti 2 il müddətinə uzadılmışdır (2012-2014). Təşkilata sədrlik isə 2014-cü ilin ortalarında CİCA-nın Şanxayda keçiriləcək 4-cü Zirvə toplantısında Çin Xalq Respublikasına (ÇXR) keçəcək.

33. Türkiyənin sədrliyi ərzində Xüsusi İşçi Qrupunun 10, Yüksək Vəzifəli Məmurlar Komitəsinin 11, İqtisadi Alt-Qrupun 7 toplantısı, həmçinin CİCA-nın Beynəlxalq Miqrasiya Təşkilatı Seminarı (Antalya), Kiçik və Orta Müəssisələrin Ekspert toplantısı (İstanbul), 2 CİCA Biznes Forumu (Banqkok, İstanbul), BMT-nin 66-cı Baş Assambleyası çərçivəsində Nyu Yorkda CİCA üzv dövlətlərinin Xarici İşlər Nazirlərinin qeyri-rəsmi görüşü keçirilmişdir.

34. Türkiyə Avropa Birliyi əlaqələri 12 sentyabr 1963-cü ildə Avropa İqtisadi Birliyi ilə imzalanmış və 1 dekabr 1964-cü ildən qüvvəyə minən Ankara sazişinə əsaslanan assosiasiya rejimi çərçivəsində başlamışdır. Türkiyənin Avropa Birliyinə inteqrasiyası üçün mühüm mərhələni təşkil edən Gömrük İttifaqı sazişi isə 1 yanvar 1996-cı ildə qüvvəyə minmişdir. Bu sazişlə tərəflər arasında inteqrasiyanın səviyyəsi yüksək həddə çatmışdır və Türkiyənin növbəti hədəfi Ankara Sazişində göstərildiyi kimi (Maddə 28) Avropa Birliyinə üzv olmaqdır. Gömrük İtifaqı Türkiyənin AB ilə münasibətlərinin fundamental ölçüsü olaraq qalmaqda davam edir. (Mövcud Assosiasiya rejiminin əsas orqanları Assosiasiya Şurası, Assosiasiya Komitəsi, Gömrük Əməkdaşlıq Komitəsi və birgə Əməkdaşlıq Komitəsidir.)

## III. TÜRKDİLLİ ÖLKƏLƏRİN DİGƏR REGİONAL VƏ SUB-REGİONAL TƏŞKİLATLARDA İŞTİRAKI

***İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT)***

35. Kommersiya və ticarət istiqamətli qurum kimi formalaşan İqtisadi Əməkdaşlıq Təşkilatı Türkiyə, Mərkəzi və Cənubi Asiya dövlətlərini bir araya gətirən platforma rolunu oynayır. Hal-hazırda İƏT-ə 10 ölkə daxildir (Türkiyə, İran, Pakistan, Qazaxıstan, Azərbaycan, Türkmənistan, Əfqanıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan).

36. TÜRKPA üzv ölkələri İƏT-in müxtəlif sahələrdə olan fəaliyyətini yaxından izləyir. Üzv ölkələr müxtəlif tədbirlər keçirməklə və digər üzv ölkələr tərəfindən də keçirilən tədbirlərdə iştirak etməklə İƏT-in fəaliyyətini dəstəkləyir.

37. İƏT-in hökumətlərarası orqanının 2012-ci ildə Bakıda keçirilən Zirvə toplantısına bir sıra regional dövlət başçıları qoşulmuşdur. Müzakirələr nəqliyyat, kənd təsərrüfatı, enerji sektorları, ətraf mühitin mühafizəsi sahəsində iqtisadi əməkdaşlığa, eləcə də İƏT-ə üzv ölkələrinin inteqrasiya, sosial, mədəni, elmi və texnoloji inkişafın dərinləşdirilməsinə yönəlmişdir.

38. TÜRKPA üzv ölkələri təşkilatın gələcək inkişafı üçün əlindən gələni edir və konkret layihələr üzərində işləməklə üzv ölkələr arasında dostluq münasibətlərinin gələcək inkişafı üçün öz töhfəsini vermiş olur.

39. İƏT-in üzvləri ortaq tarixi, iqtisadi, siyasi maraqlara malik olduğundan təşkilatın fəliyyətinin uğurla həyata keçməsində maraqlıdır. Ənənələr, müqəddəs İslam dini üzv ölkələrini birləşdirir və onlar da hər cəhdlə İslam mədəniyyətini təbliğ etməyə çalışırlar.

40. Bütün İƏT ölkələrinə xidmət edəcək Bakı-Tbilisi-Qars dəmiryolu tezliklə başa çatacaq. Bu dəmiryolu xətti nəinki Azərbaycan və Türkiyə, həmçinin qitələri birləşdirəcək. Bu geosiyasi və geo-iqtisadi vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq strateji layihədir.

41. Üzv ölkələrin böyük iqtisadi potensialı, konkret layihələr üzərində əməliyyatlar İƏT-in daha da güclənməsinə və təşkilatın siyasi iqtisadi və mədəni sferalarda təşəbbüslərin, qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edəcəyinə inamı daha da artırır. Qlobal maliyyə böhranı regional ölkələrin birgə fəaliyyət göstərməli olduğunu və onların iqtisadiyyat, enerji və nəqliyyat sektorlarında əməkdaşlığının vacibliyini bir daha nümayiş etdirdi.

***Avropa Şurası***

42. Avropa Şurası II dünya müharibəsindən sonra Türkiyə üçün Avropa ilə ilk təşkilati əlaqə funsksiya daşıyan qurumdur. Türkiyə təşkilat yaranan zaman, 1949-cu ilin avqustunda, Yunanıstan və İslandiya ilə birlikdə dəvət olunmuş və təşkilatın qurucu üzvü hesab olunur.

43. Türkiyənin Avropa Şurası ilə əlaqələri son bir neçə il ərzində uğurla inkişaf edərək yüksək səviyyəyə çatmışdır. Assambleyanın 2010-cu ilin qış sessiyası zamanı Türkiyə nümayəndə heyətinin sədri yekdilliklə 2 il müddətinə Parlament Assambleyasının Prezidenti seçilmişdir. 10 noyabr 2010-cu ildə, Türkiyə Avropa Şurası Nazirlər Komitəsinin sədrliyinə başlamış və 11 may 2011-ci ildə Ukraynaya təhvil vermişdir.

44. 10 noyabr 2010-cu ildə Avropa Şurası Nazirlər Komitəsinin sədrliyini təhvil almaqla, Avropa Şurasının yaradılmasından sonra Türkiyə yeddinci dəfə bu məsuliyyəti üzərinə götürmüşdür. Türkiyə sədrliyinin əsas məqsədi Avropa Şurasının siyasi rolunun, əhəmiyyətinin və aktuallığının gücləndirilməsi olmuşdur. Müvafiq olaraq, Türkiyə sədrliyinin prioritetləri beş sahəni əhatə etmişdir: Avropa Şurasında islahatların aparılması, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin uzunmüddətli effektivliyinin qorunması, Avropa Şurasının müstəqil monitorinq mexanizminin gücləndirilməsi, Aİ-nin İnsan Hüquqları üzrə Avropa Konvensiyasına qoşulmasının asanlaşdırılması və çoxmədəniyyətli Avropa cəmiyyətlərinin problemlərinin həlli.

45. 25 yanvar 2001-ci ildə Avropa Şurasının üzv dövlətinə çevrildikdən sonra Azərbaycan Avropa Şurasının bütün işçi qurumları ilə sıx və fəal əməkdaşlıq etməkdədir. Azərbaycanla Avropa Şurası arasındakı münasibətlər Avropa dəyərləri ilə milli dəyərləri birləşdirməyə çalışan hökumətin siyasətini əks etdirir.

46. Avropa Şurası Parlament Assambleyası (AŞPA) Avropa Şurasının məşvərətçi orqanıdır və Azərbaycan AŞPA-da millət vəkillərindən ibarət nümayəndə heyəti ilə təmsil olunur. Plenar və komitə iclaslarında iştirak və çıxışlar etmək, o cümlədən, AŞPA Komitələrinin hesabatlarını hazırlamaqla Azərbaycan AŞPA-nın işində yaxından iştirak edir və öz töhfələrini verir.

47. AŞPA ilə Qırğızıstan arasında əməkdaşlıq 2011-ci ildə AŞPA tərəfindən Qırğızıstan Respublikasına "Demokratiya üçün partnyor" statusu vermək təşəbbüsü ilə başlamışdır. AŞPA-nın əvvəlki prezidenti cənab Mövlud Çavuşoğlu 2011-ci ildə Mərkəzi Asiya səfəri zamanı Qırğızıstan tərəfinə təklifini irəli surmüşdür. Bu statusunun verilməsi ilə bağlı yekun qərar AŞPA-nın 2014-ci ilin aprel ayında keçiriləcək sessiyasında veriləcək.

### *Müstəqil Dövlətlər Birliyi və MDB PA*

48. Müstəqil Dövlətlər Birliyi (MDB) 1991-ci ilin dekabr ayında yaradılmışdır. Qəbul olunmuş Bəyannamədə Birliyin iştirakçıları suveren bərabərlik əsasında qarşılıqlı fəaliyyətlərini elan etdilər. Müstəqil Dövlətlər Birliyinin üzv dövlətlərinin Parlamentlərarası Assambleyası (MDB PA) 27 mart 1992-ci ildə, qurucu Parlament sədrlərinin imzaladığı Müqavilənin şərtləri ilə Almatı şəhərində (Qazaxıstan Respublikası) yaradılmışdır.

49. TÜRKPA üzv dövlətlərindən üçü (Azərbaycan, Qazaxlstan və Qırğızıstan) MDB PA-nın fəaliyyətində iştirak edir. MDB PA üzv dövlətlərinin başlıca missiyası MDB-də hüquq quruculuğu və milli qanunların uyğunlaşdırılmasıdır.

50. 1993-cü ilin sentyabr ayında, MDB dövlət başçıları malların, xidmətlərin, işçi qüvvəsinin, kapitalın sərbəst hərəkəti üçün ümumi iqtisadi məkanın yaradılması; əlaqələndirilmiş pul, vergi, qiymət, gömrük, xarici iqtisadi siyasətin hazırlanması; iqtisadi fəaliyyəti tənzimləyən metodların bir araya gətirilməsi və birbaşa istehsal münasibətlərinin inkişafı üçün əlverişli şəraitin yaradılması üçün İqtisadi Birliyin qurulması üzrə Müqavilə imzaladılar.

51. Sülhyaratma MDB PA-nın əsas istiqamətlərindən olmuşdur və olmaqda davam edir. O regional münaqişələrin həllinə cəlb olunması üçün hüquqi bazanın inkişafı və Birlik dövlətlərində dünyada sülh təşəbbüslərinə istiqamətləndirməni əhatə edir.

### *Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT)*

52. Müstəqil Dövlətlər Birliyi çərçivəsində formalaşan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı 1992-ci il 15 mayda imzalanan, Qazaxıstan və Qırğızıstan da daxil olmaqla bəzi MDB ölkələri arasında qarşılıqlı müdafiə ittifaq kimi çıxış edir.

*Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT)*

53. Şanxay Əməkdaşlıq Təşkilatı 15 iyun 2001-ci ildə, Şanxay şəhərində altı dövlət: Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan tərəfindən yaradılmış hökumətlərarası təşkilatdır.

54. 1996 və 1997-ci illərdə dövlət başçıları müvafiq olaraq Şanxay və Moskvada görüşmüş və Sərhəd Bölgələrində Hərbi Etimadın Dərinləşməsi və Sərhəd Bölgələrində Hərbi Qüvvələrin Azaldılması Müqavilələrini imzalamışdır. Daha sonra bu illik toplantı müntəzəm praktikaya çevrilmiş və növbə ilə üzv dövlətlərdə keçirilmişdir.

55. TÜRKPA üzv dövlətləri olan Qazaxıstan və Qırğızıstan ŞƏT-in fəaliyyətində yaxından iştirak edirlər. Həmçinin Türkiyə təşkilatın fəaliyyətind dialoq tərəfdaşı kimi iştirak edir.

## III. BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ TÜRKDİLLİ ÖLKƏLƏR ARASINDA QARŞILIQLI ƏLAQƏLƏRİN İNKİŞAFINDA TÜRK ƏMƏKDAŞLIQ İNSTİTUTLARININ ROLU.

56. Giriş hissəsində qeyd olunduğu kimi, TÜRKSOY-un ardından Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və Türkdilli Ölkələrin Parlament Assambleyasının yaranması ilə digər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əlaqələr yeni bir təşkilatlanma mərhələsinə qədəm qoymuşdur.

57. Türkdilli dövlətlər arasında iqtisadi, siyasi və mədəni əməkdaşlıq üzrə birgəmodel formalaşdırmaq üçün üç təşkilat bir-biri ilə əməkdaşlıq edir. Təşkilatlar qəbul edilmiş sənədlərində bir-birilərinin fəaliyyətlərinə dəstəklərini ifadə edirlər.

58. Türk Şurasının məqsədi Türkdilli dövlətlər arasında hərtərəfli əməkdaşlığı daha da dərinləşdirmək və beləliklə dünyada və regionda sülh və stabilliyə birgə töhfə vermək imkanlarını inkişaf etdirməkdir. Bu sahədə Naxçıvan Anlaşmasının preambulasında qeyd olunduğu kimi, üzv dövlətlər Birləşmiş Millətlər Nizamnaməsinin məqsəd və prinsiplərinə və digər beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsip və normalarına sadiqdirlər. Türk Şurası BMT Baş Assambleyasında müşahidəçi statusu əldə etmək üçün müraciət etmişdir.

59. Bununla yanaşı, Türk Şurasıson zamanlar beynəlxalq forumlar çərçivəsində yüksək səviyyədə müntəzəm məsləhətləşmələr prosesini başlatmışdır.Belə ki, Türk Şurası BMT Baş Assambleyası və İKT Nazirlər sessiyası çərçivəsində Xarici İşlər Nazirləri arasında işguzar görüşlər keçirmişdir.ATƏT çərçivəsində Türkdilli dövlətlərin nümayəndə heyətləri 2013-cü ilin dekabrında Kiyevdə keçirilmiş ATƏT Nazirlərin Şurasının toplantısı zamanı birgə bəyanat qəbul etmişlər.

60. TÜRKPA Türkdilli ölkələr arasında əməkdaşlığın parlament ölçüsüdür. TÜRKPA-nın fəaliyyətləri hər şeydən öncə BMT və onun dəyərlərininali rolunun tanınmasına əsaslanır. Bu çərçivədə, TÜRKPA da BMT Baş Assambleyasında müşahidəçi statusu əldə etmək üçün müraciət etmişdir. TÜRKPA üzv ölkələrinin BMT-dəki daimi nümayəndəliklərinin səyləri nəticəsində bu müraciət 2011-ci ildə BMT Baş Assambleyasının 66-cı

sessiyasının gündəliyinə daxil edilmişdir. Üzv ölkələrin Xarici İşlər Nazirləri məsələ ilə bağlı müsbət nəticənin əldə edilməsi istiqamətində fəaliyyətlərini davam etdirirlər.

61. TÜRKPA nümayəndə heyəti 22-27 mart 2013-cü il tarixində Ekvadorun paytaxtı Kito şəhərində keçirilmiş Beynəlxalq Parlamentlərarası İttifaqın 128-ci Assambleyasında iştirak etmiş və TÜRKPA Beynəlxalq Katibliyinin təşəbbüsü ilə TÜRKPA üzvü ölkələrin nümayəndə heyətlərinin toplantısı keçirilmişdir.

62. TÜRKPA Beynəlxalq Katibliyi ATƏT PA çərçivəsində Türkdilli ölkələr arasında qarşılıqlı fəaliyyətlərin əlaqələndirilməsi prosesi ilə məşğuldur. Bu baxımdan, Katiblik TÜRKPA üzvü ölkələrinin ATƏT PA çərçivəsində birgə fəaliyyət planını hazırlamışdır. Fəaliyyət planı TÜRKPA üzv ölkələrinə ATƏT Parlament Assambleyası çərçivəsində birgə fəaliyyətlər həyata keçirməyi təklif edir və qarşılıqlı maraq doğuran məsələlərdə TÜRKPA üzv ölkələri milli nümayəndə heyətləri arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin yollarını axtarır. Bugünə qədər TÜRKPA üzv ölkələri ATƏT PA çərçivəsində üç görüş keçirmişlər. Bütün nümayəndə heyətləri fəaliyyət planını müsbət qiymətləndirmiş və qarşılıqlı fəaliyyətləri genişləndirmək barədə razılığa gəlmişlər. Bu fəaliyyət planına uyğun olaraq, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlamentariləri onlar tərəfindən irəli sürülmüş qətnamə layihələri ilə bağlı məlumat mübadiləsinə başlamışlar. Nəticə olaraq, dörd nümayəndə heyətinin üzvləri ATƏT PA-nın 29 iyun - 3 iyul 2013-cü il tarixində İstanbulda keçirilən İllik Sessiyası zamanı təqdim edilmiş qətnamə layihələrini qarşılıqlı şəkildə dəstəkləmiş və imzalamışlar.

63. Eyni zamanda, TÜRKPA üzv dövlətləri nümayəndə heyətləri ATƏT PA-nın 22-ci İllik Sessiyası çərçivəsində üçüncü görüşünü keçirmişdir. Görüş zamanı ATƏT PA-da TÜRKPA üzv dövlətlərdən müxtəlif vəzifələrə olan namizədlərin dəstəklənməsi məsələsi müzakirə olunmuşdur. İstanbul Sessiyasında cənab Emin Önen ATƏT Parlament Assambleyasının Vitse-Prezidenti, cənab Azay Quliyev ATƏT PA Siyasi Məsələlər və Təhlükəsizlik üzrə Baş Komitənin sədr müavini və Roza xanım Aknazarova İqtisadiyyat, Elm, Texnologiya və Ətraf Mühit Məsələləri üzrə Baş Komitənin sədri vəzifəsinə seçilmişdir.

64. Bynəlxalq əməkdaşlıq çərçivəsində TÜRKSOY qeyri-maddi mədəni irsin qorunması üzrə birgə fəaliyyətlər təşəbbüsünü başladaraq əsasən YUNESKO ilə əlaqələrini inkişaf etdirir. İlk dəfə olaraq, TÜRKSOY və YUNESKO-nun Milli Komitələri arasında daha sıx əməkdaşlığa imkan yaratmaq üçün YUNESKO-nun Milli Komitələrinin toplantısı keçirilmişdir.Bu əməkdaşlıq Türk mədəni irsi ilə bağlı məsələlərin YUNESKO bazasına daxil edilməsi və Türk mədəni dəyərlərinin və görkəmli tarixi şəxsiyyətlərin təbliğikimi əsas məsələlər üzrə YUNESKO çərçivəsində Türkdilli ölkələrin praktiki qarşılıqlı fəaliyyəti üçün əlverişli platforma təqdim edir. Qeyri-maddi Mədəni İrsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2014-cü ilin 4 dekabr tarixində Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilmiş 8-ci sessiyası zamanı diplomatik nümayəndələr, beynəlxalq təşkilatlar və YUNESKO-nun rəhbərliyi ilə çoxsaylı müzakirələr və danışıqların nəticəsində Manas, Semetey və Seytek epos trilogiyasının YUNESKO-nun Qeyri-maddi Mədəni İrsi siyahısına daxil edilməsi ilə bağlı yekdilliklə qərar qəbul edilmişdir.

## IV. TÜRKDİLLİ ÖLKƏLƏRİN BEYNƏLXALQ ARENADA BİRGƏ FƏALİYYƏTİNİN PERSPEKTİVLƏRİ.

65. Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət və beynəlxalq təşkilatlarda birgə mövqenin nümayiş etdirilməsi məsələləri Türk Şurasının, əvvəlki Zirvə toplantılarının və eyni zamanda TÜRKPA-nın bəyannamələrində əks olunmuşdur.

66. Beləliklə, Türkdilli Dövlət Başçılarının 9-cu Zirvə Toplantısının Naxçıvan Bəyannaməsində tərəflər beynəlxalq təhlükəsizlik, davamlı inkişaf və eyni zamanda BMT-nin Nizamnaməsində təsbit edilmiş məqsədlərə nail olmaq üçün qlobal və strateji məsələlərin həlli istiqamətində beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsinin önəmini vurğulamışlar.

67. Dövlət Başçılarının 10-cu Zirvə Toplantısının İstanbul Bəyannaməsində tərəflər Türkdilli ölkələr üçün həssas olan məsələlərin regional və beynəlxaq təşkilatların gündəliyinə daxil edilməsi üçün beynəlxalq təşkilatlarda birgə mövqenin qəbul edilməsinin əhəmiyyətinə diqqət çəkmişlər. Bu baxımdan, onlar mühüm beynəlxalq görüşlərdən əvvəl Türkdilli dövlətlər arasında görüşlərin keçirilməsi və Türkdilli dövlətlər arasında əlaqələrin genişləndirilməsi və gücləndirilməsi məqsədi ilə əməkdaşlıq imkanlarının müzakirə olunması barədə razılığa gəlmişlər.

68. Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının Almatı Bəyannaməsində əsas məsələlərdən biri kimi Türkdilli dövlətlərin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığına diqqət yetirilmişdir. Bəyannamə Asiya qitəsində sülh və stabilliyin inkişafına xidmət edən səylərə töhfə verəcək regional təşkilatlar çərçivəsində əməkdaşlığı müsbət qarşılamışdır.Bundan başqa dövlət başçıları Avrasiya və ondan kənarda mədəniyyətlərarası dialoq və anlayışın müsbət əks sədalarla inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli nəticələr verəcək Avropanın aparıcı institutları ilə dialoq və əməkdaşlıq etmək sahəsindəümumi iradələrini ifadə etmişlər.Beynəlxalq əməkdaşlıq kontekstində Almatı Bəyannaməsibeynəlxalq siyasi məsələləri müzakirə etmək üçün Xarici İşlər Nazirlərini müntəzəm görüşlər keçirməyə dəvət etmiş vəüzv ölkələrin iştirak etdiyi beynəlxalq görüşlərdə Türk Şurası Katibliyinin müşahidəçi kimi iştirakını müvafiq hesab etmişdir.

69. Ötən illər ərzində Türkdilli ölkələr müxtəlif beynəlxalq tədbirlərin keçirilməsinə evsahibliyi və müxtəlif beynəlxalq platformalarda liderlik etmək üçün namizədliklərini irəli sürmə prosesi təşəbbüsünü başlatmışlar. Bu cür proses Türk ölkələrinin daha yaxın əlaqələri və qarşılıqlı dəstəyi üçün əlverişli imkanlar yaradır.

70. Beləliklə, TÜRKPA-nın Dördüncü Plenar Sessiyasının Ankara Bəyannaməsində Assambleya üzv ölkələrə Türkiyə Respublikasının2015-2016-cı illər üçün və Qazaxıstan Respublikasının 2017-2018-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyini dəstəkləməyi tövsiyə edir. Eyni zamanda Assambleya, 2017-ci ildə Astanada keçiriləcək Beynəlxalq EKSPO sərgisini qeyd edir və İzmirin EKSPO 2020-yə namizədliyini Türk dünyası üçün əlverişli irəliləyiş hesab edərək üzv ölkələri bu namizədlik prosesində Türkiyəni dəstəkləməyə çağırır. Əgər bu namizədliklər baş tutsa, Türk dünyası Birləşmiş Millətlər Təhlükəsizlik Şurasında təmsil olunacaq və əsas beynəlxalq tədbirlər iki Türk şəhərində təşkil olunacaqdır.

## V. NƏTİCƏ

71. Türkdilli ölkələrin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətləri TÜRKPA üzvlərinin su və enerji resursları, ticarət və investisiya, humanitar və sosial məsələlər, eləcə də narkotik və insan alveri və dini ekstremizmə qarşı mübarizə kimi məsələlərə effektiv və nəticə yönümlü yanaşmalarını inkişaf etdirmək səylərini dəstəkləməlidir.

72. Türkdilli ölkələrin beynəlxalq maliyyə təşkilatları daxilində qarşılıqlı fəaliyyətləri üzv ölkələrin dövlət borclarına yenidən baxılması və silinməsi kimi məsələlərlə bağlı TÜRKPA üzvlərinin əlaqələndirilmiş fəaliyyətlərində əks olunmalıdır.

73. Türkdilli dövlətlərin Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı zamanı üzv ölkələrin qarşılaşdığı məsələlər bu hesabatda öz əksini tapmışdır. Hesabat bu cür qarşılıqlı fəaliyyətlərin səmərəliliyini sübut edir.

74. Bir sıra beynəlxalq platformalar Türkdilli millətlərə bu çərçivədə qarşılıqlı əməkdaşlıq etmək üçün müxtəlif imkanlar təqdim edir. Beynəlxalq arenada qarşılıqlı əlaqələrinin genişləndirilməsi onların öz xalqlarının rifahı üçün əməkdaşlığın gücləndirilməsinə səbəb ola bilər və eyni zamanda regional sülh və stabilliyə xidmət edər.

75. İnstitusional əməkdaşlığın yaranması ilə Türkdilli ölkələr global beynəlxalq arenada yeni qarşılıqlı əlaqə imkanları əldə etdilər. Ötən illər ərzində, Türkdilli ölkələrortaq siyasi və iqtisadi məsələlərin müzakirəsi zamanı qarşılıqlı etimad əldə etmişlər. Bu çərçivədə, müxtəlif tədbirlər və təşəbbüslərin həyata keçirilməsi ilə bağlı ölkələr arasında koordinasiya fəaliyyətlərinin inkişafında müəyyən irəliləyişlər əldə edilmişdir.

76. Türkdilli dövlətlərin iqtisadiyyatlarının dinamik inkişafı onların iştirak etdiyi qlobal iqtisadi layihələrin inkişafı kontekstində beynəlxalq arenada əməkdaşlığa təkan verir.Birgə enerji və nəqliyyat layihələri, eləcə də yeni texnologiya və innovasiyaların tətbiqi Türkdilli dövlətlərin ticarət və investisiya həcminin inkişafına kömək edir.Bu meyillər Türkdilli dövlətləri qlobal beynəlxalq platforma çərçivəsində iqtisadi məsələlər üzrə ümumi mövqe ifadə etməyə təşviq edir.

77. Göründüyü kimi, Türkdilli ölkələr müxtəlif regional və beynəlxalq təşkilatların üzvləridir. Üzv dövlətlərin bu təşkilatlarda fəal iştirakı ümumi maraq doğuran məsələlərin bu təşkilatların gündəliyinə gətirilməsinə müsbət yardım edə bilər və məsələlərin birgə müzakirələrini asanlaşdıra bilər.

78. Üzv ölkələr beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək verilməsi üçün konkret yollar hazırlaya və müəyyən edə bilər.Əvvəlki təcrübənin göstərdiyi kimi, üzv ölkələr onların nümayəndə heyətlərinin aparıcı beynəlxalq təşkilatların müxtəlif vəzifələrinə olan namizədliyini birgə dəstəkləmiş və nümayəndə heyətləri tərəfindən təqdim edilən sənədlərin ilkin müzakirələrini aparmışlar.Paralel olaraq Türk əməkdaşlıq institutları aparıcı beynəlxalq təşkilatlarda həm hökumətlərarası, həm də parlamentlərarası səviyyədə müntəzəm məsləhətləşmələrin keçirilməsi təşəbbüsünü başlatmışlar. Bu proses Türk əməkdaşlıq institutlarının əsas beynəlxalq təşkilatlarda müşahidəçi statusunun əldə edilməsi fəaliyyətlərinə əhəmiyyətli töhfə verə bilər. Bundan başqa, müvafiq beynəlxalq təşkilatların gündəliyinin müzakirəsi zamanı üzv ölkələr birgə mövqenin təqdim edilməsi üçün əməkdaşlıqlarını artıra bilərlər.

79. Türkdilli ölkələrin institutlaşdırılmış əməkdaşlığı onların aparıcı beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrinin xüsusi spektrinin formalaşmasını asanlaşdırmışdır. Bu cür qarşılıqlı fəaliyyət ümumi maraq doğuran məsələlər barədə müzakirələr, fikir mübadiləsi və məsləhətləşmələr üzərində qurulmuşdur. Bu baxımdan üzv ölkələrin beynəlxalq ictimaiyyət daxilində birgə fəaliyyətlərimüxtəlif məsələlər ətrafında ortaq bir iradə və konkret mövqe nümayiş etdirir.

80. Beynəlxalq ictimaiyyət daxilində Türkdilli dövlətlərin iqtisadi, siyasi və mədəni əməkdaşlığı üçün bir model formalaşdırmaq məqsədi ilə Türkdilli ölkələrin əməkdaşlığı və həmrəyliyi gücləndirilə bilər. Bu əməkdaşlığın effektivliyi ancaq beynəlxalq arenada Türk əməkdaşlığının bütün ölçüləri arasında inkişaf etdirilmiş koordinasiyaya əsaslanır.

81. Türkdilli ölkələrin konsolidasiya edilmiş fəaliyyətinin gələcək perspektivləri, üzv dövlətlərin beynəlxalq əməkdaşlıq sahəsində uzunmüddətli vizyon və öhdəliklərinə əsaslanır. Qlobal arenada qarşılıqlı fəaliyyətin konkret mexanizmlərinin yaradılması dünyada və regionda sürətli iqtisadi və siyasi inkişaf baxımından xüsusi əhəmiyyətə malikdir. Üzv ölkələrin müxtəlif sahələrdə üzləşdiyi oxşar problemlər onları görünürlüyünü artırmaq və beynəlxalq fəaliyyətlərini təkmilləşdirməyə çağırır.